

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 may 2026-cı il №31 (3033) https://mod.gov.az Qiymətı 30 qəpik

## Ulu Öndər Heydər Əliyevin şah əsəri - müasir müstəqil Azərbaycan

*Hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün mühüm şərtlər onun milli iradəyə və liderə malik olmasıdır. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri Ulu Öndər Heydər Əliyev olduqca mürəkkəb dövrdə bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri sırasında öz layiqli yerini tutmuşdur.*



Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya şəklində qalan milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla, əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, qurub yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə gələcək müstəqil dövlətin iqtisadi qüdrətinin təməli qoyuldu, respublikamız inkişaf tempinə görə keçmiş ittifaq miqyasında öncül sıralara çıxdı. Bu baxımdan Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın taleyində daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixi, milli özünüdərkin başlanğıcı kimi qəbul olunur. Həmin tarixdən başlayaraq respublikamızın bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoydu. 70 ildən artıq sovet rejimi şəraitində yaşayan Azərbaycan itirilmiş azadlığını qaytarmaq, dövlət müstəqilliyini bərpa etmək amalı ilə yaşamış, uzun illər boyu imperiya idarəçiliyinin siyasi və ideoloji təzyiqlərinə məruz qalmasına baxmayaraq, öz dilini və dinini qorumuş, milli mədəniyyətini inkişaf etdirmiş, müttəfiq respublika şəklində də olsa öz dövlətçiliyini saxlamışdır.

(Ardı 2-ci səhifədə)

## Tarixi yaddaş və birliyin təntənəsi

XX əsr bəşəriyyətin yaddaşında yalnız elmi-texniki tərəqqi ilə deyil, eyni zamanda, ən ağır və sarsıdıcı müharibələrlə də iz qoymuşdur. Bu dövrün ən faciəli hadisələrindən biri olan İkinci Dünya müharibəsi xalqların taleyini dəyişdirən, dövlətlərin siyasi xəritəsini yenidən formalaşdıran tarixi sınaq idi. Faşizm təhlükəsi təkcə müəyyən regionları əhatə etmirdi, bütövlükdə o, dünya sivilizasiyasına qarşı yönəlmişdi. Bu müharibə yalnız silahların toqquşması deyil, həm də insan iradəsinin və birliyin sınağı idi. Belə bir təhlükənin qarşısının alınması isə yalnız vahid iradə, güc və fədakarlıq sayəsində mümkün oldu.

1941-ci ilin iyununda Sovet İttifaqına qarşı başlayan müharibə qısa müddətdə geniş miqyas alaraq milyonlarla insanın həyatını alt-üst etdi. Faşizm təhlükəsi yalnız müəyyən ölkələr üçün deyil, bütün bəşəriyyət üçün real təhlükəyə çevrildi. Bu şəraitdə Sovet ittifaqının tərkibində olan digər xalqlar kimi Azərbaycan xalqı da vahid məqsəd ətrafında birləşərək mübarizəyə qalxdı. Qısa müddətdə minlərlə insan könüllü və ya səfərbərlik yolu ilə cəbhəyə yollandı. Onların hər biri Vətənin müdafiəsini özünün ən ali borcu hesab edir, döyüş meydanlarında misilsiz qəhrəmanlıq nümunələri göstərirdi.

Belə dəhşətli müharibə illərində Azərbaycandan 600 mindən çox insan cəbhəyə yollandı. Bu rəqəm o dövr üçün son dərəcə böyük göstərici idi və xalqın mübarizəyə nə dərəcədə səfərbər olunduğunu açıq şəkildə göstərirdi. Onların yarıdan çoxunun geri qayıtmaması isə qələbənin necə ağır şəraitdə əldə olunduğunu bir daha sübut edir. Bu, sadəcə statistika deyil - hər biri bir ailənin itkisi, bir ocağın sönməsi deməkdir.

(Ardı 5-ci səhifədə)

## ƏÜO-da hərbi vəzifəlilərlə növbəti təlim toplanışı keçirilib



Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) “N” hərbi hissəsində bir qrup hərbi vəzifəlinin cəlb olunması ilə keçirilən növbəti təlim toplanışı başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, səfərbərlik tədbirlərinin yerinə yetirilməsi ardıcıllığına uyğun olaraq, qəbul məntəqəsində hərbi vəzifəlilər qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra onların işgüzar və mənəvi-psixoloji keyfiyyətləri öyrənilib, hərbi uçot ixtisası üzrə bölüşdürülüb, bütün növ təminatlarla təmin ediliblər.

Şəxsi heyətlə məsuliyyətliliyin formalaşdırılması istiqamətində maarifləndirici söhbətlər aparılıb, onlara hərbi nizamnamələrin və müvafiq qanunvericiliyin tələbləri, eləcə də təhlükəsizlik qaydaları çatdırılıb.

Toplanış çərçivəsində günün nizam qaydalarına uyğun fəaliyyətlər icra olunub, müasir döyüşün xüsusiyyətlərinə uyğun ümumqoşun və ixtisas hazırlıqları üzrə məşğələlər keçirilib, atıcı silahlardan və əl qumbaraatanlarından praktiki atış çalışmaları yerinə yetirilib.

Təlimin sonunda toplanış müddətində fərqlənənlər həvəsləndirilib.

## Bakıda Azərbaycan və Gürcüstanın kibertəhlükəsizlik sahəsi üzrə hərbi mütəxəssislərinin işçi görüşü keçirilib

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında 2026-cı il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Bakı şəhərində hər iki ölkənin kibertəhlükəsizlik üzrə hərbi mütəxəssislərinin işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə hər iki ölkənin hərbi qurumları arasında informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı təcrübə mübadiləsi məqsədilə bu cür səfərlərin vacibliyi xüsusi vurğulanıb, eləcə də maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş müzakirələr aparılıb.

## Polkovnik Bəhram bəy Nəbibəyov



Azərbaycan hərb tarixinin görkəmli simalarından olan Bəhram bəy Qasım bəy oğlu Nəbibəyov 6 dekabr 1884-cü ildə Nuxada (indiki Şəki şəhəri) zadəgan ailəsində anadan olub. İlk təhsilini Kutaisi Realnı Məktəbində aldıqdan sonra Sankt-Peterburqdakı Konstantin Artilleriya Məktəbinə qəbul olub. 1904-cü il sentyabrın 2-də buranı 1-ci dərəcəli diplomla başa vurub. Elə həmin il Qafqazdakı 20-ci artilleriya briqadasında "podporuçik" rütbəsində hərbi xidmətə başlayıb. Bəhram bəy 1909-cu ilin sentyabrında "poruçik", 1912-ci ilin avqustunda isə "ştabs-kapitan" rütbəsinə layiq görülüb.

Bəhram bəy Nəbibəyov Birinci Dünya müharibəsində iştirak edib. Döyüşlərdə və xidmətdə fərqləndiyinə görə 2-ci dərəcəli "Müqəddəs Anna" və "Müqəddəs Stanislav" ordeni ilə təltif edilib. 1918-ci il noyabrın 27-də Azərbaycan Topçu Briqadasına təyinat alıb, sonra isə 2-ci topçu briqadasının 3-cü batareyanın komandiri vəzifəsində xidmət edib. 1919-cu ilin noyabrında Şüvəlan-Türkan istiqamətində Bakının dənizdən müdafiəsinin təşkili onun rəhbərliyi ilə 3-cü topçu batareyasından və 5-ci Bakı Piyada Alayının bir bölüyündən təşkil edilmiş dəstəyə tapşırılıb. Düşmənin desant çıxarmağa cəhd edəcəyi təqdirdə, dənizdən ehtimal edilən təhlükənin qarşısını almaq məqsədilə Şüvəlan-Türkan-Qala xətti üzrə dəniz sahili boyunca müdafiə mövqeləri qurulub.

(Ardı 8-ci səhifədə)

# Ulu Öndər Heydər Əliyevin şah əsəri - müasir müstəqil Azərbaycan

**Ümummilli Lider Heydər ƏLİYEV:**

*Vətənə məhəbbət, xalqa məhəbbət mənim beynimdədir, qanımdadır, bütün varlığımdadır. Heç nə, heç kim, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz.*

(Əvvəli 1-ci səhifədə)




Ümummilli Liderin ilk hakimiyyəti illərində bu proseslər daha geniş vüsət almış, ölkə iqtisadiyyatının möhkəmləndirilməsi, dövlət quruculuğu, mədəni və mənəvi yüksəliş sahəsində mühüm işlər görülmüşdür. Bu dövrdə Ulu Öndərin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrildi. Müstəqilliyə qovuşmaq məqsədi ilə reallaşdırılan həmin tədbirlər nəticəsində milli varlığımız, azərbaycançılıq ideyası qorunub saxlanıldı.

Dövlətin əbədi mövcud olması üçün güclü ordunun olması da vacib idi. Odur ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycanda ordu quruculuğunun da təməli qoyuldu. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesi dayanmış və yalnız Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesinə başlanmışdı. Ümummilli Liderin təşəbbüsü ilə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Liseyin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrlarının hazırlanmasına gətirib çıxardı. C.Naxçıvanski adına Hərbi Lisey Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi. Sonralar Ulu Öndər deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm". Ulu Öndərin bu sahəyə qayğısı sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də keçmiş SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail olundu. Dahi Liderin təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli ordusunun peşəkar komandan heyətini təşkil etdi.



XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Bələliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərcmərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət verməl, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o zamankı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Xalqımızı nicata aparan yol bilavasitə həmin günlərdən başlandı. Müstəqilliyimizin ilk illərində mövcud ictimai-siyasi gərginlik digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğursuzluqlara səbəb oldu. Milli ordunun yaradılması qarşıya qoyulan ən vacib məsələlərdən biri idi.

1993-cü ildə xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Bu dövrdə Azərbaycanda ciddi siyasi böhran yaranmışdı. Demək olar ki, ölkəmiz vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı. Ulu Öndər ölkəni hərc-mərclikdən, xaosdan, parçalanmaq təhlükəsindən xilas etdi. Azərbaycan xalqını canı qədər sevən Dahi Lider Heydər Əliyev müstəqil dövlətin möhkəmlənməsi üçün zəruri islahatlar apardı. Ölkədə separatçılıq və anarxiyanın qarşısı alındı, bütün sahələr kimi, ordu quruculuğuna da start verildi. Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ordunun yenidən təşkili, ordu quruculuğu sahəsində peşəkarlığın artırılması və maddi-texniki təminatın gücləndirilməsi istiqamətində bir sıra islahatlar həyata keçirildi. Ordu quruculuğu ölkədə güclü və peşəkar ordunun yaradılmasını prioritet istiqamətlərindən biri kimi əsaslandırdı. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu Horadiz əməliyyatı 2016-cı ilin Aprel döyüşləri, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qazanılmış tarixi Zəfərimizin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyev çıxışlarının birində qeyd edirdi: "... Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır".

Dahi şəxsiyyət Heydər Əliyev qısa zaman ərzində hüquqi islahatlar həyata keçirərək beynəlxalq aləmdə də Azərbaycanın nüfuzunu artırdı. Ulu Öndər Heydər Əliyevin strateji baxışlarından biri də Azərbaycanın iqtisadi müstəqilliyini təmin etmək idi. Bu baxımdan 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın zəngin təbii ehtiyatları beynəlxalq investorlara açıldı, ölkə Cənubi Qafqazın enerji mənbəyinə çevrildi. Bu müqavilə həm iqtisadi, həm də siyasi müstəqilliyin möhkəmlənməsinə gətirib çıxardı. Beynəlxalq təşkilatlara üzvlük, xarici siyasət, hüquqi dövlət quruculuğu və milli həmrəyliyin bərpası məhz həyata keçirilən prioritet islahatların bariz nümunəsidir.




Azərbaycanın müstəqilliyinin qazanılması böyük tarixi hadisə olsa da, bu müstəqilliyi qorumaq və onu möhkəmləndirmək daha çətin və məsuliyyətli iş idi. Bu ağır, tarixi missiyanın öhdəsindən gələn və onu öz üzərinə götürən şəxs məhz Ümummilli Lider Heydər Əliyev oldu. Ulu Öndər müstəqil Azərbaycanın memarı, dövlətçilik ənənələrinin bərpasının və müasir dövrə uyğun inkişafının əsasını qoyan dahi şəxsiyyət kimi tarixə düşdü. Onun "Müstəqillik bizim ən böyük sərvətimizdir" kəlamı bu gün də Azərbaycan dövlətinin ideoloji əsaslarından biridir.

Azərbaycan dövlətinin sabitliyi, iqtisadi inkişafı və beynəlxalq nüfuzunun artması birbaşa olaraq Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi ilə bağlıdır. 2003-cü ildə xalqın iradəsi ilə prezident seçilən İlham Əliyev fəaliyyətə başladığı gündən Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu siyasətinin zənginləşdirilməsini əsas prioritet kimi qarşıya qoydu. Prezident İlham Əliyev həm daxili, həm də xarici siyasətdə Heydər Əliyev irsini müasir tələblərə uyğun olaraq davam etdirdi və Azərbaycanın dayanıqlı inkişaf modelini formalaşdırdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoydu. Ordumuz müasir silah və texnika ilə təchiz edildi, dünyanın müxtəlif ölkələri ilə hərbi əməkdaşlıq sahəsi daha da genişləndirildi.

Keçirilən genişmiqyaslı təlimlər ordumuzun döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artırdı. Ordu quruculuğu sahəsində aparılan islahatlar nəticəsində sosial təminat sahəsində də mühüm irəliləyişlər əldə olundu. Hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların sosial rifahının yüksəldilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordu quruculuğu sahəsində aparılan zəruri islahatların nəticəsidir ki, 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət göstərərək 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi və xalqımıza tarixi Zəfərin sevincini yaşatdı.

Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki bu firavanlığı, bu işığı bəxş edən Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz var. Dünyanın ən güclü orduları sırasında yer alan Azərbaycan Ordusunun həm silah arsenalı, həm də maddi-texniki bazası genişlənir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu daha da yüksəlir.

**Sevinc QULİYEVA,**
**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Baş direktor "SAHA EXPO 2026" sərgisində iştirak edib







Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti "SAHA EXPO 2026" Beynəlxalq Müdafiə, Aviasiya və Kosmik Sənaye Sərgisində iştirak etmək üçün Türkiyə Respublikasına işgüzar səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində nazir müavini Türkiyənin milli müdafiə naziri cənab Yaşar Güler, Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri cənab Haluk Görgün və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakerlə görüşüb.

Keçirilən görüşlərdə ölkələrimiz arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti sərgidə dünyanın aparıcı beynəlxalq şirkətlərinin istehsalı olan hərbi aviasiya, qlobal aeronavtika, süni intellektlə dəstəklənən innovasiyalar və kosmik tədqiqatlara aid nümunələrlə tanış olub.

Baş direktor Almaniya, Sudan, Birləşmiş Krallıq, Vyetnam və İtaliya müdafiə nazirliklərini və hərbi sənaye komplekslərini təmsil edən nümayəndə heyətlərinin, eləcə də "ASELSAN", "Baykar", "Roketsan", "TUSAŞ" və "ARCA Savunma" şirkətlərinin rəhbərləri ilə görüşüb. Görüşlərdə hərbi-texniki əməkdaşlığa dair maraq doğuran məsələlər müzakirə olunub.

Qeyd edək ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən "MİRAS Hərbi-Sənaye Şirkəti" MMC sərgidə ölkəmizi stendlə təmsil edib.





# "SAHA EXPO 2026"da yeni texnologiyalar nümayişi olunub





Türkiyənin İstanbul şəhərində keçirilən "SAHA EXPO 2026" Beynəlxalq Müdafiə, Aviasiya və Kosmik Sənaye Sərgisi ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

AZƏRTAC xəbər verir ki, 120-dən çox ölkədən minlərlə peşəkarın qatıldığı sərgidə 203 yeni məhsul ilk dəfə təqdim olunub.

Türkiyə "SAHA 2026"da aparıcı müdafiə sənayesi şirkətləri olan "Baykar", "ASELSAN", "Roketsan", Müdafiə Texnologiyaları Mühəndislik və Ticarət Səhmdar Cəmiyyəti (STM) və Müdafiə Sənayesinin İnkişafı və Dəstəklənməsi Baş İdarəsi (FNSS) ən yeni texnologiyalarını nümayiş etdirib.

"Baykar" şirkətinə məxsus "MIZRAK", "K2" və "Sivrisinek" hərbi hava texnikaları sərgidə ilk dəfə nümayiş olunub.

"ASELSAN" şirkəti isə 5 yeni məhsul və 6 modernləşdirilmiş sistemini sərgiləyib. "Roketsan" şirkəti və FNSS əməkdaşlığı ilə hazırlanan "ALKA-KAPLAN HİBRİD" yönləndirilmiş enerji silah sistemi, STM isə müasir döyüş ehtiyaclarına uyğun yeni hava və dəniz platformalarını sərgiyə təqdim edib.

Tədbir çərçivəsində Türkiyənin yerli pilotsuz dəniz vasitələri, eləcə də ölkənin Hərbi Dəniz Donanmasına məxsus gəmilər İstanbul sahillərində ziyarətçilərə nümayiş etdirilib.




Umumilikdə 140-dan çox rəsmi nümayəndə heyətinin iştirak etdiyi "SAHA 2026" mayın 9-da "Xalq günü" çərçivəsində ictimaiyyət üçün açıq olacaq.

400 min kvadratmetrlik ərazidə təşkil edilən tədbirdə 263-ü xarici olmaqla, 1700-dən çox şirkət iştirak edir. Sərgi çərçivəsində ümumilikdə 164 imza mərasiminin keçirilməsi planlaşdırılır və ixrac müqavilələrinin həcminin ən azı 8 milyard ABŞ dollarına çatdırılması hədəflənir.

Qeyd edək ki, tədbirin ilk iki günü Türkiyə ilə fərqli ölkələr arasında radar sistemləri, kamikadze İHA-lar, İHA sistemləri üçün kameraların və "KAAN" beşinci nəsil hərbi təyyarə tədarükü, "Kızılelma" pilotsuz təyyarəsinin inteqrasiyası da daxil olmaqla, ümumilikdə 20 müqavilə imzalanıb.

Xatırladaq ki, Azərbaycan "SAHA EXPO 2026" sərgisində Müdafiə və Müdafiə Sənayesi nazirliklərinin rəhbərliyi səviyyəsində təmsil olunub.

## Haluk Görgün: Yeni ortaq layihələrlə Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq bağları daha da möhkəmlənəcək

Türkiyənin İstanbul şəhərində keçirilən 5-ci "SAHA 2026" Beynəlxalq Müdafiə və Aerokosmik Sərgisi davam edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev sərgi çərçivəsində Türkiyə Prezident Administrasiyasının Müdafiə Sənayesi Baş İdarəsinin sədri Haluk Görgün ilə görüşüb.

Görüş barədə açıqlama verən Görgün Türkiyənin və Azərbaycanın "Bir millət, iki dövlət" anlayışı ilə müdafiə sənayesi sahəsində bənzərsiz əməkdaşlıq modeli qurduğunu bildirib.

O deyib: "Qarşıdakı dövrdə həyata keçiriləcək yeni ortaq layihələrlə iki ölkə arasındakı qardaşlıq bağları daha da möhkəmlənəcək. Azərbaycan ilə davam edən əməkdaşlığımız regional sülhün təmin olunmasına, həmçinin ortaq rifaha və əmin-amanlığına xidmət edir".

# Azərbaycan ilə Türkiyə hərbi nümayəndə heyətlərinin görüşü keçirilib



Bakıda Azərbaycan ilə Türkiyə arasında kütləvi qırğın silahlarından mühafizə sahəsi üzrə qabiliyyətlərin inkişaf etdirilməsi və bu sahədə dünyada cərəyan edən hadisələrin təqib edilməsi məqsədilə görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edən general-leytenant Azər Əliyev Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluğa əsaslanan əlaqələrin hərbi sahədə də sürətlə inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsində möhkəmləndiyini qeyd edib.

Görüşdə bildirilib ki, qarşılıqlı səfərlər qlobal və regional inkişaf tendensiyaları nəzərə alınmaqla, radiasiya, kimyəvi və bioloji mühafizə sahəsində fəaliyyətlərin davamlı şəkildə təhlilinə və ordularımızın potensialının ən yüksək səviyyədə saxlanılmasına mühüm töhfə verir.



Tərəflər, həmçinin hərbi, hərbi-texniki və digər sahələrdə görülən işlərin cari vəziyyətini müzakirə edib, qarşılıqlı maraq doğuran mövzular ətrafında geniş fikir mübadiləsi aparıblar.

# Özbəkistan nümayəndə heyəti MMU-nu ziyarət edib








Azərbaycan və Özbəkistanın müdafiə nazirlikləri arasındakı hərbi əməkdaşlıq planına əsasən, Özbəkistan Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyəti ölkəmizə səfər edib.

Milli Müdafiə Universitetində (MMU) keçirilən görüşdə universitetin yaranma tarixi, fəaliyyəti və tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələri barədə brifinqlər təqdim olunub, hərbi təhsil sisteminin cari vəziyyəti təhlil edilib.

Səfər çərçivəsində özbəkistanlı qonaqlar MMU-nun Hərbi İdarəetmə İnstitutunda, Xarici Dil Mərkəzində, Hərb Oyunları Mərkəzində və Heydər Əliyev adına Hərbi İnstitutda olublar. Nümayəndə heyətinə tədris prosesi barədə məlumat verilib, onlar müəssisələrin ərazisi və inzibati binalarında yaradılan şəraitlə tanış olublar.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

# “EFES-2026” çoxmillətli təlimi davam edir



Qardaş Türkiyə Respublikasında Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusunun iştirakı ilə keçirilən "EFES-2026" çoxmillətli birgə müştərək təlimi uğurla davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin növbəti mərhələsinin planına uyğun olaraq, Azərbaycan, Türkiyə, Albaniya, Niger, Nigeriya və Rumıniya nümayəndələri mağara, sığınacaq və tunellərdə axtarış, eləcə də dağçılıq hazırlığı üzrə məşqlər keçiblər.

Qeyd edək ki, real döyüş şəraitinə uyğunlaşdırılmış təlimdə hərbçilərimiz tapşırıqların icrası zamanı yüksək təcrübə nümayiş etdiriblər.



# ƏÜO-da “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu”nun növbəti buraxılış mərasimi keçirilib





*Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) növbəti "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətən uğrunda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb.

Tədbirdə çıxış edənlər kursu müvəffəqiyyətlə bitirənlərə Vətənə və hərbi anda sadiq olmağı, hərbçi şərəfini hər zaman uca tutmağı tövsiyə edib, gələcək xidmətlərində uğurlar arzulayıblar.

Məzunlar kurs müddətində qazandıqları bilik və praktiki vərdişləri xidmətdə daha da təkmilləşdirəcəklərinə, qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirəcəklərinə və Vətən torpaqlarını layiqincə qoruyacaqlarına söz veriblər.

Sonda hərbi qulluqçulara sertifikatlar təqdim olunub, kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub.



# Minskdə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin xatirəsi anılıb







Minskdə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Azərbaycanın Belarusdakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Azərbaycan və Belarus respublikalarının Dövlət himnləri səsləndirilib, İkinci Dünya müharibəsində qələbə uğrunda canlarından keçmiş bütün qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən səfir M.Əliyev İkinci Dünya müharibəsində Azərbaycan xalqının həm döyüş meydanında, həm də arxa cəbhədə nümayiş etdirdiyi şücaətdən, eləcə də ölkəmizin faşizm üzərində qələbəyə verdiyi töhfədən bəhs edib. Çağırışçılardan və könüllülərdən ibarət Azərbaycan diviziyalarının Qafqazdan Berlinə qədər şərəfli hərbi yol keçdiyini qeyd edən səfir, müharibə zamanı göstərdikləri hərbi şücaətə görə 128 azərbaycanlının "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görüldüyünü, onlardan 12-sinin məhz Belarusun azad edilməsi uğrunda qəhrəmanlığı ilə seçildiyini diqqətə çatdırıb.

Belarus xarici işlər nazirinin müavini Pavel Utyupin ölkəsində İkinci Dünya müharibəsinin nəticələrinin, cəbhə xəttində, partizan dəstələrində vuruşan və arxa cəbhədə cəsarətlə çalışan qəhrəmanların xatirəsinin nəsildən-nəslə ötürüldüyünü diqqətə çatdırıb.

Oxşar tədbirlərin digər MDB ölkələrində də keçirilməsinin sevindirici hal olduğunu qeyd edən nazir müavini, bir sıra ölkələrdə Belarus diplomatik nümayəndəliklərinin qəhrəmanların adlarını daşıyan küçə və prospektlərdə yerləşdiyini diqqətə çatdırıb.

P.Utyupin Belarusun azad olunması uğrunda döyüşmüş N.Rəfiyevin əziz xatirəsinin daim hörmətlə yad ediləcəyini və onun şücaətlərinin gənc nəslə çatdırılaraq xatirəsinin əbədi yaşadılacağına inamını ifadə edib.



MDB Baş katibinin birinci müavini İ.Petrişenko şanlı qələbənin əldə olunmasında Bakı neftinin və neft məhsullarının, eləcə də Azərbaycanda yaralıların müalicəsinə xidmət edən 70-dən çox hərbi hospitalın əvəzsiz roluna toxunub, bunlarsız qələbənin mümkünsüz olacağını vurğulayıb. N.Rəfiyevin simasında Belarusun müdafiəsi uğrunda mübarizə aparmış azərbaycanlıların xatirəsinin hər zaman hörmətlə yad edildiyini vurğulayan İ.Petrişenko, tarixi həqiqətlərin gənc nəslə çatdırılması və onların vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində bu kimi tədbirlərin xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində N.Rəfiyev adına Minsk şəhər 170 nömrəli orta məktəbin şagirdlərinin ifasında şeir və mahnılar səsləndirilib.

Sonda tədbir iştirakçıları Sovet İttifaqı Qəhrəmanı N.Rəfiyevin büstünün qarşısına gül dəstələri qoyublar.



(Əvvəli 1-ci səhifədə)

# Tarixi yaddaş və birliyin təntənəsi

Azərbaycanlı döyüşçülər müharibənin ən çətin və qızğın istiqamətlərində vuruşurdular. Moskva uğrunda döyüşlərdə, Stalinqrad küçə döyüşlərində və Berlin əməliyyatında onların iştirakı xüsusi əhəmiyyət kəsb edirdi. Bu döyüşlərdə qazanılan təcrübə və göstərilən şücaət faşizmin məğlubiyyətində mühüm rol oynadı.

Bu döyüşlərdə tank qoşunlarının görkəmli sərkərdəsi Həzi Aslanovun adı Azərbaycan hərb tarixində xüsusi yer tutur. Onun rəhbərlik etdiyi hərbi hissələr ən mürəkkəb əməliyyatların öhdəsindən uğurla gələrək, düşmənin müdafiə xəttini yarırdı. İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi onun hərbi məharətinin və şəxsi cəsarətinin bariz nümunəsi idi.

İsrafil Məmmədov da göstərdiyi igidliklə Azərbaycan əsgərinin döyüş ruhunun simvoluna çevrildi.

"Mixaylo" ləqəbi ilə tanınan partizan Mehdi Hüseynzadə isə düşmən arxasında həyata keçirdiyi əməliyyatlarla özünəməxsus yer tutdu.

İkinci Dünya müharibəsi yalnız silahlı qarşıdurma deyildi. O, eyni zamanda, iqtisadiyyatın, sənayenin və arxa cəbhənin gücünün sınağı idi. Məhz bu baxımdan Azərbaycanın rolu xüsusi əhəmiyyət kəsb edirdi. Respublika qısa müddətdə hərbi sənaye mərkəzlərindən




birinə çevrildi. Zavod və fabriklər mülki istehsaldan hərbi istehsala keçərək ordunun ehtiyaclarını ödəməyə başladı. Burada müxtəlif növ silah-sursat, hərbi texnika üçün ehtiyat hissələri və digər vacib ləvazimatlar istehsal edilirdi. Azərbaycanın strateji əhəmiyyətini artıran əsas amillərdən biri isə onun zəngin enerji ehtiyatları idi. Neft sənayesi fasiləsiz fəaliyyət göstərərək, cəbhənin yanacaq təminatında həlledici rol oynayırdı. Tankların, təyyarələrin və digər hərbi texnikanın döyüş qabiliyyəti məhz birbaşa bu təminatdan asılı idi. Bu baxımdan Bakı nefti müharibənin gedişinə təsir edən əsas faktorlardan biri idi. Bu nefti həm də faşizm üzərində qələbənin əsas amillərindən biri hesab etmək düzgün olardı. Müharibə dövründə Sovet ordusunun istifadə etdiyi yanacağın böyük hissəsi, məhz Bakıdan təmin edildiyinə görə Almaniyanın Qafqaz planında buranın əsas hədəf kimi göstərilməsi təsadüfi deyildi.

Müharibə vaxtı arxa cəbhədə qadınların rolu xüsusilə qeyd olunmalıdır. Onlar həm ailə yükünü daşıyır, həm də istehsalatda fəal iştirak edirdilər. Ziba Qəniyeva kimi qadın döyüşçülər isə birbaşa cəbhədə iştirak edərək, faşistlərə ciddi zərbələr endirirdi. Eyni zamanda, bir çox qadınlar könüllü olaraq, cəbhəyə yollanıb tibb xidmətində, rabitə və digər mühüm sahələrdə xidmət göstərirdilər, onların səyi sayəsində yaralı əsgərlər xilas edilir, rabitə əlaqələri qorunurdu. Bu, Azərbaycan qadınının gücünü və iradəsini bir daha sübut edirdi.

Gənclər də bu mübarizədə fəal iştirak edirdilər. Onlar həm cəbhədə döyüşür, həm də arxa cəbhədə məsuliyyətli vəzifələri yerinə yetirirdilər. Müharibə nə qədər dəhşətli olsa da, onların iradəsi qorxularına təslim olmayacaq qədər güclü formalaşmışdı. Bu, xalqın gələcəyinin etibarlı əllərdə olduğunu göstərirdi.

Müharibənin taleyini dəyişən əsas döyüşlərdən biri Stalinqrad döyüşü oldu. Burada əldə olunan qələbə faşist ordusunun geri çəkilməsinə səbəb oldu. Ardınca Kursk döyüşü və Berlin əməliyyatı müharibənin sonunu yaxınlaşdırdı.

1945-ci il mayın 9-da faşizm üzərində əldə olunan Qələbə tarixə qızıl hərflərlə yazıldı. Bu qələbə milyonlarla insanın həyatına son qoysa da eyni zamanda, azadlıq və ədalətin bərpasını təmin etdi. Azərbaycanlı döyüşçülərin bir çoxu yüksək dövlət mükafatlarına layiq görüldülər. Həmin qəhrəmanlar, yalnız döyüş meydanında deyil, həm də mənəvi dəyərlərin qorunmasında da mühüm rol oynamışlar.

Müharibə illərində Azərbaycan xalqı birlik və həmrəylik nümayiş etdirdi. İnsanlar bir-birinə dayaq olur, çətinlikləri birlikdə dəf edirdilər. Bu birlik faşizm üzərində qələbənin əldə olunmasında əsas amillərdən biri idi. Çünki güclü cəmiyyət, yalnız iqtisadi və hərbi resurslarla deyil, eyni zamanda, mənəvi dəyərlərlə formalaşır.

Azərbaycan Ordusu bu gün regionun ən güclü orduları sırasındadır. Onun peşəkarlığı, döyüş hazırlığı və texniki təminatı daim təkmilləşdirilir. Ordunun gücü yalnız texniki imkanlarla məhdudlaşmır, burada ata və babalarının qəhrəmanlıq yolunu davam etdirən şəxsi heyətin mənəvi hazırlığı da əsas rol oynayır.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi bu gün də ən aktual məsələlərdən biridir. Tarixin öyrənilməsi, qəhrəmanların tanıdılması və onların həyat yolunun təbliği bu istiqamətdə mühüm rol oynayır.

81 il ötür, zaman dəyişir, nəsillər yenilənir, amma faşizm üzərində qələbənin əhəmiyyəti dəyişmir. Tarix yaşadıldıqda gücə çevrilir. İkinci Dünya müharibəsində qazanılan qələbə bizim üçün sadəcə keçmiş deyil, bu, milli kimliyimizin bir parçasıdır. Və bir həqiqət də dəyişməz olaraq qalır: xalq qəhrəmanlarını unutmadıqca onun qəhrəmanlığı əbədidir.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Məramı Vətən torpaqlarının azadlığı idi

Azərbaycanda elə bir ailə, elə bir nəsil yoxdur ki, Qarabağ müharibəsinin acısını dadmasın. "N" hərbi hissəsində görüşüb həmsöhbət olduğum polkovnik-leytenant Rəşad Əmrah oğlu Mamedov müharibənin acısını ən çox çəkənlərdəndir. Rəşad Kəlbəcərin İstisu qəsəbəsində anadan olub. Onun uşaqlıq illəri ermənilərin Azərbaycana qarşı ərazi iddialarının irəli sürdüyü, daha sonra isə müharibə illərinə təsadüf edir.

1993-cü ilin yazında Kəlbəcər erməni silahlı birləşmələri tərəfindən işğal ediləndə Rəşadgilin ailəsi də doğma eli tərk etməli olub. Əsas yollar erməni silahlı quldur dəstələri tərəfindən bağlanmışdı. Kəlbəcərlilər qarlı, keçilməz yollara üz tutdular. O zaman Rəşadın atası Əmrah da Murovdağdan keçə bilməyib qarlı havada donaraq vəfat etdi. Ailəsi isə Gəncə şəhəri Gülüstan qəsəbəsinə pənah gətirdi. 7 yaşlı Rəşadın yaddaşında erməni vəhşiliyi bax belə dərin iz buraxdı. Böyüyəndə düşməndən qisas alacağını düşündü.

Bir yandan köçkünlük, bir yandan da atasız həyat Rəşadı sanki sınağa çəkmişdi. Bu sınaqdan üzüağ çıxmağa çalışırdı. İllər ötdükcə Rəşad böyüyür, böyüdükcə gələcək barədə düşünürdü. Doğulduğu və uşaqlıq illərini qoyub gəldiyi Kəlbəcər üçün çox darıxırdı. Doğma yurdun erməni işğalı altında qalmasına dözmək onun üçün çətin idi. Rəşad 8-ci sinfi bitirəndən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxumaq qərarına gəldi. Anasına bu haqda öz istəyini bildirdi. Ana da oğluna xeyir-dua verib uğurladı. 2001-ci ildə Rəşad arzu etdiyi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldu.

Rəşad Mamedovun arzusu zabit olmaq və erməni işğalı altında olan torpaqlarımızı azad etmək idi. Bunun üçün mütləq yaxşı oxuyub, praktikada təcrübə toplayaraq, döyüşdə düşmənə ağır artilleriya zərbələri endirib qisas almağı düşünmüşdü. 2004-cü ildə Rəşad indiki Heydər Əliyev adına Hərbi İnstitutunun "Yerüstü artilleriya" fakültəsinə qəbul oldu. Rəşad artilleriya silahları haqqında daha müfəssəl biliklər toplamağa çalışdı. 2008-ci ildə gənc "leytenant" Təlim və Tədris Mərkəzində bir il "Zabit ixtisas hazırlığı" kursu da keçib. Daha sonra o, təyinatla "N" hərbi hissəsində artilleriya batareyasının taqım komandiri vəzifəsinə təyin olunub.



Rəşad zabit kimi xidmətə başladığı gündən qarşıya məqsəd qoydu ki, tabeliyində olan şəxsi heyətə hərbi təhsil illərində mənimsədiyi bilik və bacarıqlarını aşılasın. Onların qayğısına qalmaqla, döyüş vərdişlərini artırsın. Ali Baş Komandanın verdiyi döyüş əmrinə hər an müntəzir olsun. Beləliklə, Rəşad bütün varlığı ilə tabeliyində olanlara qayğı göstərir əsgərlərə bilik və bacarıqları aşılamaqdan qürur duyurdu. 2016-cı ilin Aprel döyüşləri başlayanda Rəşadın komandiri olduğu tank əleyhinə batareya Füzuli-Cəbrayıl istiqamətində düşmənə sarsıdıcı zərbələr endirirdi.

İkinci Qarabağ müharibəsi zamanı Rəşad düşmənlə təmas xəttində yerləşən hərbi hissənin artilleriya xidməti üzrə məsul zabitlərindən olub. Döyüş zamanı artilleriya bölmələrini bacarıqla idarə edib. 44 gün çəkən müharibəni Rəşad belə xatırlayır: "Düşmənlə üz-üzə xidmət edirdim. 2020-ci ilin iyulun əvvəlindən cəbhədə vəziyyət daha da gərginləşdi. Ermənistanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən hücuma keçdi. Döyüşçülərin sayıqlığı nəticəsində onlar itki verərək geri çəkildilər. Bizim də müdafiə etdiyimiz istiqamətdə mövqeləri düşmən artilleriya silahlarından atəşə məruz qoyurdu. Cavab atəşindən sonra düşmən susurdu. Sentyabrın sonuna yaxın yenə düşmən cəbhədə təxribata əl atdı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev orduya əks-hücum əmri verdi. Bundan sonra tabeliyimdə olan artilleriya bölmələri tam gücü ilə döyüşə qatıldı. Düşmənə ilk zərbələri bizim bölmələrimiz endirdi. Çünki müdafiədə olduğumuz üçün bölmələrin əvvəlcədən müəyyən etdiyi hədəflər mövcud idi. Həmin nöqtələrdən düşmən aramsız atəş açırdı. Topçularımızın səlis atəşi nəticəsində düşmən susmağa məcbur olurdu. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd, Ağdam rayonlarının azad edilməsi istiqamətində bölmələrimiz uğurlu hərbi əməliyyatlar keçirdi. Hər kənd, şəhər düşməndən azad edildikcə qürur duyurdum. Kəlbəcərin də azad ediləcəyi günün yaxınlaşdığını düşünüb sevinirdim. Bu mənə və döyüşçülərə ruh verirdi".

Rəşad Mamedov İkinci Qarabağ müharibəsində göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Vətən uğrunda", "Şücaətə görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub. Rəşad "Qisas" əməliyyatında da iştirak edib. Xocavənd istiqamətində gedən döyüşlərdə yaralanıb.

Müharibə bitsə də, artilleriyaçılar döyüş hazırlıqlarını daim artırırlar. Polkovnik-leytenant Rəşad Mamedov tabeliyində olan şəxsi heyətin qayğısına qalır, daima onların döyüş hazırlığının yüksəldilməsinə çalışır.

Otuz ilə yaxın erməni işğalı altında qalmış doğma Kəlbəcər, İstisu qəsəbəsi artıq azaddır. Zamanında elindən, obasından köçkün düşməyə məcbur olmuş soydaşlarımız kimi, Rəşad da ailəsi, yaxınları ilə ata-baba yurduna qayıdacağı günü səbirsizliklə gözləyir. Qarabağın və digər ərazilərin azad edilməsi naminə hər cür çətinliyə qatlaşan döyüşçü artıq arzusuna çatıb. Həmsöhbət olduğum zabitin sanki üzərindən böyük bir yük götürülüb. Şərəfli hərbi xidmət Rəşad üçün heç də asan olmayıb. Onda bir yorğunluq duyuram. Arzusu Kəlbəcərə köçüb orada yaşamaq və dincəlməkdir. Dəyərli döyüşçüyə uğurlar diləyi ilə ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# ƏÜO-nun nümayəndələrinin iştirakı ilə kompleks mülki müdafiə təlimi keçirilib



Naxçıvanda "İrimiqyaslı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusunda kompleks mülki müdafiə təlimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı ilə keçirilən təlimdə Əlahiddə Ümumqoşun Ordunun, FHN-nin aidiyyəti strukturlarının, Fövqəladə Hallar Komissiyasının nümayəndələri, İcra Hakimiyyətinin Mülki müdafiə qərargahı, idarə, müəssisə və təşkilatların rəhbərləri və mülki müdafiə sahəsində cavabdeh şəxslər, mülki müdafiə xidmətləri, ərazi və obyekt mülki müdafiə dəstələri iştirak ediblər.

Təlim üçün nəzərdə tutulan qərargahda keçirilən müşavirədə mülki müdafiə tədbirlərinin icra vəziyyətindən danışılıb, bu sahədə idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin vacibliyi qeyd olunub, fövqəladə halların nəticələrinin aradan qaldırılması istiqamətində qarşılıqlı fəaliyyətin əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, təlimin əsas məqsədi fövqəladə hallar zamanı əhalinin və ərazilərin mühafizəsinin təşkili üçün mülki müdafiə tədbirlərinin effektli səviyyədə yerinə yetirilməsinin təmin edilməsi, mülki müdafiə qüvvələrinin idarə olunması ilə bağlı vaxtında və düzgün qərarların qəbul edilməsi, həmçinin xilasetmə işlərinin təşkili və aparılması üzrə şəxsi heyətin praktiki vərdişlərinin daha da təkmilləşdirilməsidir.

Ümumilikdə 404 nəfərdən ibarət şəxsi heyətin və 52 ədəd texnikanın cəlb edildiyi təlimdə tapşırıqlar yüksək keyfiyyətlə icra edilib, qarşıya qoyulan məqsədlərə nail olunub.

Sonda tədbirdə fərqlənənlərə fəxri fərmanlar təqdim edilib.

# Naxçıvan Hərbi Kollecində praktiki dərslər uğurla davam edir





Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində "Uçan aparatların texniki istismarı (orta ixtisas təhsili)" ixtisası üzrə təhsil alan kursantlar praktiki məşğələlər çərçivəsində döyüş texnikalarının yazyay mövsümünə texniki xidmət prosesi ilə tanış olublar.

Milli Müdafiə Universiteti xəbər verir ki, dərs zamanı kursantlara mövsümi baxış, texniki xidmət qaydaları, istismar xüsusiyyətləri və təhlükəsizlik normaları barədə ətraflı məlumat verilib. Eyni zamanda, onlar praktiki olaraq texniki xidmət prosesində iştirak edərək texnikanın saxlanılması və istismarı sahəsində təcrübə qazanıblar.

Belə praktiki məşğələlər kursantların nəzəri biliklərinin möhkəmləndirilməsinə, peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsinə və gələcək xidmət fəaliyyətinə daha hazırlıqlı olmalarına mühüm töhfə verir.



# Xalqın yaddaşına həkk olunan əbədiyyət zirvəsi

*Vətən anlayışı hər bir xalq üçün müqəddəsdir. Bu müqəddəsliyin qorunması isə tarix boyu fədakar insanların - öz canını torpağa sipər edən igidlərin sayəsində mümkün olub. Şəhidlik anlayışı yalnız ölüm deyil, o, bir ideyanın, bir amalın, bir xalqın gələcəyinin yaşaması naminə edilən ən ali fədakarlıqdır. Bu zirvəyə ucalan insanlar öz həyatlarını xalqın sabahına çevirərək əbədiyyət qazanırlar. Onların adı zamanın yaddaşına yazılır, xatirəsi isə nəsildən-nəslə ötürülərək, milli kimliyin ayrılmaz hissəsinə çevrilir.*



Şəhidlik təkcə dini və ya hərbi termin deyil, həm də dərin fəlsəfi məna daşıyan bir anlayışdır. Bu anlayışın mərkəzində insanın öz şəxsi maraqlarını xalqın və dövlətin mənafeyindən üstün tutmaması dayanır. Şəhid olan insan həyatın ən qiymətli nemətindən - yaşamaq haqqından könüllü şəkildə imtina edir. Bu isə onun mənəvi gücünün, əqidəsinin və Vətən sevgisinin ən yüksək göstəricisidir.

Tarix boyu müxtəlif xalqlar şəhidlik məfhumuna xüsusi hörmətlə yanaşmış, onu qəhrəmanlıq və müqəddəslik zirvəsi kimi dəyərləndiriblər. Azərbaycan xalqı üçün isə şəhidlik həm də milli kimliyin, mübarizə ruhunun və azadlıq eşqinin simvoludur. Bu baxımdan şəhidlər yalnız fərdi qəhrəmanlar deyil, bütöv bir xalqın iradəsinin təcəssümüdür.

Azərbaycanın tarixində şəhidlik ənənəsi dərin köklərə malikdir. Qədim dövrlərdən başlayaraq, torpaqlarımızın müdafiəsi uğrunda canından keçən igidlərin adı xalq yaddaşında yaşayır. XX əsrin sonlarında baş vermiş ictimai-siyasi hadisələr bu anlayışı daha da aktuallaşdırdı.

Xüsusilə Birinci Qarabağ müharibəsi dövründə minlərlə Azərbaycan övladı Vətənin müdafiəsi uğrunda şəhid oldu. Bu dövr həm ağrı-acı, həm də qəhrəmanlıq səhifələri ilə yadda qaldı. Şəhidlərin qanı ilə yazılan bu tarix xalqın mübarizə əzmini sarsıtmadı, əksinə, daha da möhkəmləndirdi.

2020-ci ildə başlayan Vətən müharibəsi Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Bu müharibə təkcə hərbi əməliyyat deyil, həm də milli ruhun, birlik və həmrəyliyin təntənəsi idi. Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında olan torpaqları azad edərək tarixi ədaləti bərpa etdi.

Bu qələbənin əldə olunmasında minlərlə hərbçinin rolu danılmazdır. Onlardan 3000-dən çoxu şəhidlik zirvəsinə ucalaraq adlarını tarixə həkk etdilər. Onların hər biri bir qəhrəmanlıq dastanıdır. Bu igidlər sübut etdilər ki, Vətən sevgisi ən böyük gücdür və bu sevgi qarşısında heç bir maneə dayana bilməz.

Şəhidlər yalnız keçmişin qəhrəmanları deyil, həm də bu günün və gələcəyin yol göstəriciləridir. Onların həyat yolu gənc nəslin tərbiyəsində mühüm rol oynayır. Şəhidlərin timsalında gənclər vətənpərvərlik, cəsarət, sədaqət kimi ali dəyərləri öyrənirlər.

Məktəblərdə, ali təhsil müəssisələrində, hərbi hissələrdə şəhidlərin xatirəsinə həsr olunan tədbirlər onların ruhunu yaşatmaqla yanaşı, həm də milli şüurun formalaşmasına xidmət edir. Şəhid ailələrinə göstərilən diqqət və qayğı isə dövlətin bu müqəddəs ada verdiyi dəyərin göstəricisidir.

Şəhidlik anlayışı Azərbaycan xalqının milli kimliyinin ayrılmaz hissəsidir. Bu anlayış xalqın tarixində baş verən çətin sınaqlardan üzüağ çıxmasının əsas səbəblərindən biridir. Şəhidlər millətin şərəf və qürur simvoludur.

Onların həyat hekayələri, göstərdikləri qəhrəmanlıqlar ədəbiyyatda, incəsənətdə və mədəniyyətdə geniş əks olunur. Yazıçılar, şairlər, sənət adamları şəhidlərin obrazını yaradaraq onları əbədiləşdirirlər. Bu isə şəhidlik ideyasının cəmiyyətin bütün sahələrində yaşamasını təmin edir.

Şəhidlərin bizə qoyub getdiyi ən böyük əmanət onların ailələridir.

Şəhid anaları, ataları, övladları xalqın gözündə xüsusi hörmətə malikdirlər. Onların səbir və dözümü, eyni zamanda, qürurlu duruşu hər bir vətəndaş üçün nümunədir.

Şəhidlik - sadəcə bir söz deyil, o, bir xalqın, Vətənin varlığını qoruyan müqəddəs dəyərdir, zirvədir. Bu zirvəyə ucalan insanlar öz həyatlarını xalqın gələcəyinə çevirərək əbədiyyət qazanırlar. Onların adı tarix kitablarında yazılsa da, əslində, onlar xalqın qəlbində yaşayırlar.

Bu gün Azərbaycan xalqı öz şəhidləri ilə qürur duyur. Onların göstərdiyi igidliklər gələcək nəsillərə örnək olacaq, Vətən sevgisinin nə demək olduğunu hər zaman xatırladacaq. Unutmayaq ki, bu torpaqda rahat yaşamağımız, azad nəfəs almağımız məhz şəhidlərin fədakarlığı sayəsindədir.

Şəhidlər ölmürlər, onlar Vətənin yaddaşına çevrilərək əbədi yaşayırlar.

**Eltun MƏMMƏDOV**
**Bakı şəhəri**

*Məişət*

# "Diqqət və qayğı ilə tam əhatə olunuruq"

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bütün sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də apardığı uzaqgörən və məqsədyönlü siyasətin nəticəsində ordumuzun döyüş hazırlığı, maddi-texniki bazası və təminatı ən yüksək səviyyəyə çatdırılıb. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasında yer alır. Hərbi hissələrdə yaradılan müasir infrastruktur və ən son texnologiyalara əsaslanan təminat dövlətin hərbi qulluqçulara göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir. Sosial və məişət şəraitinin davamlı şəkildə yaxşılaşdırılması isə şəxsi heyətin xidmət və döyüş hazırlığının daha səmərəli təşkilinə əhəmiyyətli töhfə verir.*

"N" hərbi hissəsində şəxsi heyətin gündəlik fəaliyyəti, sosial-məişət şəraiti və təminat növləri haqqında məqalələr hazırlayarkən bunun bir daha şahidi olduq. Hərbi hissəyə daxil olduğumuz ilk andan ətrafdakı təmizlik, müasir tipli binalar, şəxsi heyətlə təlimlərin, fiziki, sıra hazırlığı və digər məşğələlərin keçirilməsi üçün ayrılan yerlər göz oxşayırdı. Bir sözlə, hərbi xidmətə gələn gənclərin hazırlıqlı əsgərlər kimi formalaşması üçün hər cür şəraitin olduğu görünürdü.

Hərbi hissənin ərazisi ilə tanış olduqdan sonra əsgər yataqxanasına yollandıq. Yataqxanada təmizlik, səliqə-sahman qaydasında idi. İçəridə lazımi bütün avadanlıqlar gözə dəyirdi, təzə çarpayılar, təmiz yataq dəstləri, yun adyallar, əlüz dəsmalları, şəxsi dolablar və gigiyenik vasitələr.

"Şəxsi heyət gündəlik olaraq, növbəli şəkildə yataqxananın təmizliyi və səliqəsi ilə məşğul olurlar", - deyə gizir Emin Ağayev bildirdi. Sözlərinə davam edən gizir dedi: "Burada əsgərlərin istirahəti, asudə vaxtlarını səmərəli keçirilməsi və şəxsi gigiyena qaydalarına riayət olunması üçün hər cür şərait yaradılıb. Valideynlər əmin ola bilərlər ki, övladları əmin əllərdədir. Heç nədən korluq çəkmədən, müasir avadanlıqlarla təchiz edilmiş bölmələrdə xidmət edirlər və hər zaman qayğı ilə tam əhatə olunurlar".

Emin Ağayevlə söhbətimizi yekunlaşdırıb çarpayıları səliqəyə salan əsgərlərlə salamlaşdıq. Onlar da yaradılan şəraitdən və təminatlarından razılıq etdilər. "Gördüyünüz kimi, sosial-məişət şəraitimiz yüksək səviyyədədir. Bizə göstərilən bu qayğıya görə bütün silahdaşlarımız adından Ali Baş Komandanımıza minnətdarlığımızı bildiririk. Bizə olan etimadı doğrultmaq üçün səylə çalışır, nümunəvi xidmət edib, vəzifələrimizin öhdəsindən bacarıqla gəlməyə can atırıq. Günün nizam qaydalarına uyğun olaraq bütün fəaliyyətlərimiz səmərəli təşkil olunur. Hərbi sirlərə və vərdişlərə yiyələnirik, fiziki hazırlığımızı artırırıq. Həmçinin istirahət vaxtlarında yataqxanadakı televizorda həm ölkədə, həm də xaricdə baş verən vacib hadisələri izləyir, Ali Baş Komandanımızın çıxışlarını dinləyirik", - əsgər Elşən Əlimov bildirdi.



Qalib və yenilməz ordunun əsgəri olmaqdan qürur duyduğunu bildirən əsgər Taleh Əliyev də düşüncələrini bizimlə bölüşdü. Yaradılan müasir şəraitin və göstərilən diqqətin mənəvi-psixoloji hazırlıqlarına müsbət təsir etdiyini, ruh yüksəkliyi aşıladığını qeyd etdi. "Vətənə övladlıq borcunu yerinə yetirmək, qalib ordumuzun sıralarında xidmət etmək hər birimiz üçün böyük sevincdir. Təminatlarımızın və şəraitimizin də yüksək olması xidmətimizi uğurla yerinə yetirməyimizə zəmin yaradır. Hər birimizin məqsədi nümunəvi xidmət edib ailəmizin yanına başıuca qayıtmaqdır".

Gözoxşayan şəraitlə bərabər, gənclərin qətiyyətli düşüncələrini dinlədikcə qürurlanırdıq. Azərbaycan gəncinin vətənpərvərliyinin, Vətənimizin müdafiəsində mətin dayandıqlarının bir daha şahidi olduq. Digər otaqda saç düzümlərini və mundirlərini səliqəyə salan əsgərlər növbəti günə hazırlaşırdılar. Hərbi xidmətin onlara aşıladığı müsbət keyfiyyətlərdən birinin də səliqəli olmaq, üst-başlarını həmişə təmiz saxlamaq olduğunu dedilər.

"Hərbi xidmət bizə hərbi bilik və vərdişlərlə yanaşı, bir çox üstün keyfiyyətlər aşılayır. İdmanı sevdirir, çalışqanlığı, zəhmətkeşliyi, həmçinin təmizkarlığı, səliqə və intizamlı olmağı öyrədir. Möhkəm iradə formalaşdırır. Bir sözlə, hər bir gənc bu məktəbi keçməlidir. Şahidi olursunuz ki, hərtərəfli diqqət və qayğı ilə əhatə olunmuşuq. Keçirilən məşğələlərdə fəal iştirak edir, təcrübəli komandirlərimizdən bilik və bacarıqları öyrənirik. Qalib ordumuzun sıralarında layiqli əsgərlər olmaq üçün var gücümüzlə çalışırıq", - deyə əsgərlər söylədilər.

Söhbətləşdiyim əsgərlərin yüksək əhvali-ruhiyyəsi, hərbi xidmətə rəğbətləri, ordumuza ürəkdən bağlılıqları bir daha göstərir ki, rəşadətli Azərbaycan Ordusunun gücü onun əsgərlərinin Vətən sevgisindədi.

Ordumuzun istənilən bölməsində dövlət başçısının və ordu rəhbərliyinin diqqət və qayğısı nəticəsində əsgərlərin məişət şəraitinin sosial təminatının yüksək səviyyəyə çatdırıldığının bir daha şahidi olduq. Belə müasir şərait Vətənin müdafiəsində dayanan şəxsi heyətin mənəvi-psixoloji hazırlığına müsbət təsir edir, döyüş ruhunu yüksəldir və onların nümunəvi xidmət əzmini daha da gücləndirir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

*Görkəmli şəxsiyyətlər*

# Polkovnik Bəhram bəy Nəbibəyov



Nəbibəyov qardaşları

(Əvvəli 1-ci səhifədə)

1920-ci ilin mart-aprel aylarında Azərbaycan Xalq Cümhuriyyətinin hərbi qüvvələrinin Qarabağda erməni-daşnak işğalçılarına qarşı apardığı əməliyyatlarda fəal iştirak edib. Onun komandiri olduğu batareya 1920-ci il aprelin 8-də Malıbəyli-Şuşakənd ətrafında gedən döyüşlərdə xüsusilə fərqlənib.

1920-ci il martın 24-də "podpolkovnik" rütbəsi alıb, həmin vaxt 2-ci artilleriya briqadasının komandiri olub.

General Həbib bəy Səlimovun hərbi nazir Səməd bəy Mehmandarova göndərdiyi teleqramda B.Nəbibəyovun bu xidmətləri xüsusi qeyd olunub.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra (1920) o, bir müddət sovet ordusu sıralarında xidmət edib, Şəkinin Hərbi Komissarı olub. Bu vəzifədə olarkən onun "polkovnik" rütbəsində olduğu bildirilir.

1930-cu ilin aprelində Şəki-Zaqatala bölgəsində Sovet hakimiyyətinə qarşı xalq üsyanı baş qaldırıb. Üsyanının rəhbərlərindən biri də polkovnik Bəhram bəy Nəbibəyov olub. O, üsyanın hərbi qanadına başçılıq edib, sovet qoşunlarına qarşı bir neçə uğurlu döyüş aparıb. Üsyanı yatırmaq üçün bölgəyə Qırmızı Ordunun çoxsaylı hərbi qüvvələri göndərilib.

1930-cu ilin iyulunda Şəki-Zaqatala bölgəsində - Bideyiz kəndi yaxınlığında, Buxdur dağında Qırmızı Ordunun bölmələri ilə baş verən qeyri-bərabər döyüşlərdə Bəhram bəy həlak olub.

Atası - çar ordusunun ştabs-kapitanı Qasım bəy Hüseyn bəy oğlu Nəbibəyov Orta Asiyada general Kuropatkinin qərargahında uzun müddət şərq dilləri üzrə hərbi tərcüməçi işləyib, eyni zamanda, Şəkidə ipək istehsalı ilə məşğul olan müəssisələrdən birinə sahib olub. O, 1925-ci ildə 95 yaşında vəfat edib. Bəhram bəyin anası Əsmər xanım olub.

Qardaşları - kapitan Zahid bəy, kapitan Vahid bəy və polkovnik Hüseyn bəy çar Rusiyası ordusunda nüfuzlu hərbçilər olublar. Zahid bəylə Vahid bəy inqilaba qədər dünyalarını dəyişiblər, Hüseyn bəy isə 1930-cu ildə - bolşeviklər tərəfindən Şəki üsyanı yatırıldıqdan sonra həbs edilib və sonrakı taleyi haqda heç bir məlumat yoxdur.

Həyat yoldaşı Aişə Sultanova olub. Naciyə və Aslan (bəzi mənbələrə görə Əsmər adlı ikinci qızı da olub) adlı övladları olub.

**"Azərbaycan Ordusu"**



## Milli Müdafiə Universiteti "İdarəetmə akademik kursu"na qəbul elan edir

Milli Müdafiə Universiteti cari ilin 5-15 may tarixlərində "İdarəetmə akademik kursu"na (İAK) elektron sənəd qəbulu elan edir.

"İdarəetmə akademik kursu" Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri və birlik qərargahlarında əməliyyatların idarə olunması, eləcə də qərargah fəaliyyətlərinin səmərəli təşkili üzrə zabitlərin hazırlanması məqsədilə 15 sentyabr 2026-cı il tarixindən 25 iyun 2027-ci il tarixinədək Hərbi İdarəetmə İnstitutunda əyani formada keçiriləcəkdir.

Kursa baş zabit kateqoriyalı vəzifələrdə xidmət edən, "Qərargah zabiti kursu"nu və ya xarici ölkələrdə onun ekvivalentini müvəffəqiyyətlə bitirmiş mayor, polkovnik-leytenant və polkovnik rütbəli zabitlər müraciət edə bilərlər.

Qəbul imtahanlarının keçirilmə yeri və tarixi barədə namizədlərə əlavə məlumat veriləcəkdir.

Ətraflı məlumatı mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsində yerləşdirilmiş "İdarəetmə akademik kursu" hissəsindən əldə etmək mümkündür.

**Əlaqə məlumatları:**
- Telefon: (012) 404-18-45.
- Çağrı mərkəzi: *0811.
- E-poçt: admission@mmu.edu.az
- Ünvan: Bakı şəhəri, Qızıl Şərq 13.1 AZ1065.

## Milli Müdafiə Universiteti "Qərargah zabiti kursu"na qəbul elan edir



Milli Müdafiə Universiteti cari ilin 5-15 may tarixlərində "Qərargah zabiti kursu"na elektron sənəd qəbulunu elan edir.

"Qərargah zabiti kursu" Azərbaycan Ordusunda briqada səviyyəsində əməliyyatların idarə olunması və qərargah fəaliyyətlərinin təşkili üzrə zabitlərin hazırlanması məqsədilə 15 sentyabr 2026-cı il tarixindən 12 fevral 2027-ci il tarixinədək Hərbi İdarəetmə İnstitutunda əyani formada keçiriləcəkdir.

Kursa baş zabit kateqoriyalı vəzifələrdə xidmət edən kapitan, mayor və polkovnik-leytenant rütbəli zabitlər müraciət edə bilərlər.

Qəbul imtahanlarının keçirilmə yeri və tarixi barədə namizədlərə əlavə məlumat veriləcəkdir.

Ətraflı məlumatı mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsində yerləşdirilmiş "Qərargah zabiti kursu" hissəsindən əldə etmək mümkündür.

**Əlaqə məlumatları:**
- Telefon: (012) 404-18-45.
- Çağrı mərkəzi: *0811.
- E-poçt: admission@mmu.edu.az
- Ünvan: Bakı şəhəri, Qızıl Şərq 13.1 AZ1065.

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyədə təbii fəlakətlər zamanı axtarış-xilasetmə beynəlxalq təlimləri keçiriləcək



Türkiyə Milli Müdafiə Nazirliyi təbii fəlakətlər zamanı axtarış-xilasetmə beynəlxalq təlimlərin keçiriləcəyini bildirib. 10-23 may tarixlərində keçirilməsi planlaşdırılan təlimlərdə Azərbaycan, Gürcüstan və Türkiyədən olan müvafiq bölmələrin iştirakı gözlənilir.

Milli Müdafiə Nazirliyinin məlumatında bildirilib: "Türkiyədə keçiriləcək təlimlər dostluq və əməkdaşlıq əlaqələrini dərinləşdirmək və fəlakət zonalarında mürəkkəb axtarış-xilasetmə əməliyyatlarında qarşılıqlı fəaliyyət bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır".

### Rumıniya ABŞ-nin antidron sisteminə çıxış əldə edən ikinci ölkə olub



Rumıniya Böyük Britaniyadan sonra Amerika Birləşmiş Ştatlarının (ABŞ) "Counter-UAS Marketplace" antidron platformasına real vaxt rejimində çıxış əldə edən ikinci ölkə olub.

Bu barədə Rumıniyanın "Stirile PRO TV" nəşri yazıb.

Məlumata görə, yeni hərbi razılaşma Rumıniya ilə ABŞ arasında dronlar və antidron sistemləri sahəsində əməkdaşlığı gücləndirməyə yönəlib. Səziş Qara dəniz regionunda təhlükəsizlik çağırışlarının artdığı, xüsusilə Rusiya dronlarının Qalaç və Tulça ərazilərinə düşməsi ilə bağlı insidentlərdən sonra imzalanıb.

Rumıniyanın Vaşinqtondakı səfirliyi bildirib ki, bu tərəfdaşlıq ölkənin hava təhdidlərini izləmək və onlara operativ cavab vermək imkanlarını əhəmiyyətli dərəcədə artıracaq.

Ekspertlərin fikrincə, razılaşma Rumıniyanın NATO-nun şərq cinahında ABŞ-nin etibarlı strateji tərəfdaşı kimi rolunu daha da gücləndirir.

### ABŞ Yaxın Şərqdəki hərbçilərinin sayını artırıb



Fevral ayından bəri ABŞ İranla münaqişə fonunda Yaxın Şərqdə yerləşən bazalardakı hərbçilərinin sayını təxminən 10 min nəfər artıraraq 50 minə çatdırıb.

Bu barədə "The New York Times" qəzeti mənbələrinə istinadla məlumat yayıb. Qəzetin məlumatına görə, ABŞ-nin İrana qarşı hərbi əməliyyatından əvvəl Yaxın Şərq regionunda - Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İraq, İordaniya, Qətər, Küveyt və Bəhreyndəki bazalarda təxminən 40 min Amerika əsgəri yerləşdirilmişdi. Hazırda isə regiondakı ABŞ hərbçilərinin sayı 50 mini keçib.

Qəzet qeyd edir ki, Yaxın Şərqdəki bütün hərbi kontingent tam döyüş hazırlığı vəziyyətindədir. Bu arada, Ağ Ev İrana qarşı hərbi əməliyyatları bərpa etməyə hazırlığı ilə bağlı ziddiyyətli siqnallar göndərir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Azərbaycanda keçiriləcək "UFC Fight Night Baku" turnirinin əsas cədvəli açıqlanıb




Azərbaycanda keçiriləcək "UFC Fight Night Baku" turnirinin əsas cədvəli açıqlanıb.

Gecənin əsas qarşılaşmasında Azərbaycan təmsilçisi Rafael Fiziev beş raundlu yüngül çəki dərəcəsində meksikalı Manuel Torreslə üz-üzə gələcək.

Turnirin ikinci əsas döyüşündə isə orta çəki üzrə Şarabutdin Maqomedov braziliyalı Michel Pereira ilə qarşılaşacaq.

İyunun 27-də Milli Gimnastika Arenasında keçiriləcək döyüş gecəsinə bilet satışının tezliklə başlayacağı bildirilib.

### Bakı idman gimnastikası üzrə beynəlxalq turnirə ev sahibliyi edəcək




Bakı idman gimnastikası üzrə "AGF Trophy" beynəlxalq turnirinə ev sahibliyi edəcək.

Milli Gimnastika Arenasında təşkil olunacaq yarışda 10-a yaxın ölkədən idmançılar bacarıqlarını nümayiş etdirəcəklər.

Turnir mayın 13-16-da keçiriləcək.

### "Sabah" basketbol komandası ardıcıl dördüncü dəfə ölkə çempionu olub



Azərbaycan Basketbol Liqasında 2025-2026-cı illər mövsümünün qalibi bəlli olub.

Final seriyasının üçüncü oyununda "Sabah" "Abşeron Lions"la üz-üzə gəlib.

Bakı İdman Sarayında təşkil edilən qarşılaşma "bayquşlar"ın 108:95 hesablı qələbəsi ilə yekunlaşıb. Bakı təmsilçisi əvvəlki iki görüşdə rəqibini məğlub etmişdi - 98:93, 112:84. Bununla da, Rimas Kurtinaytis ardıcıl dördüncü dəfə Azərbaycan çempionu olub.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elyasov Tural Şahin oğluna verilmiş AD № 0066311 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Redaktor** mayor Ceyhun CƏFƏRLİ

**Telefon** Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22

**Ünvanımız** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı** 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi** kapitan Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 478
Nüsxə 3653